TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

“10_”__Mart____ 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROKTOSEDİL** məlhəm
PROCTOSEDYL®

**Tərkibi**
*Təsiredici maddə*: 1 q məlhəmin tərkibində 5,58 mq hidrokortizon-asetat, 10 mq framisetin-sulfat, 100 BV heparinin natrium duzu, 10 mq eskulozid, 10 mq etilaminobenzoat,10 mq butilaminobenzoat vardır.
*Köməkçi maddələr*: xolesterol, duru parafin, ağ yumşaq parafin, polisorbat 80, propilenqlikol, polietilenqlikol 400, polietilenqlikol 4000, polietilenqlikol 1540.
**Təsviri**
Demək olar ki, ağ rəngli (yaşıl-sarı çalarla) homogen yağsız kütlə.

**Farmakoterapevtik qrupu**
Babasil əleyhinə kombinəolunmuş dərman.
**ATC kodu**: C05AX03

**Farmakoloji xüsusiyyətləri**
Babasil və digər anorektal lokal xəstəliklərin müalicəsi üçün kombinəolunmuş preparat.
Hidrokortizon - iltihabəleyhinə təsirə malik kortikosteroiddir. İltihabın simptomlarını (ödem, ağrı, qızartı) azaldır.
Heparinin natrium duzu antikoaqulyant təsirə malikdir. Babasilin trombotik ağırlaşmalarının qarşısını alır.
Framisetin sulfat - yerli istifadə üçün geniş spektrli təsirə malik antibiotikdir. Qrammüsbət və qrammənfi bakteriyalara münasibətdə aktivlik göstərir.
Eskulozid P vitamininə oxşardır, kapillyarların artmış kövrəkliyini azaldır.
Etilenaminobenzoat və butilaminobenzoat yerli ağrıkəsici və qaşınma əlehyinə təsir göstərir, anal sfinkterin spazmını azaldır.
Preparatın effekti qəbuldan bir neçə dəqiqə sonra başlayır.

**İstifadəsinə göstərişlər**
Xarici və daxili babasil; residivlərin profilaktikası; perianal ekzema; proktit, arxa keçəcəyin çatı, babasilli xəstələrin əməliyyatdan əvvəl və sonra müalicəsi; doğuşdan sonra yaranan babasil.

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı yüksək həsssaslıq.
Anorektal nahiyənin vərəm, virus, göbələk mənşəli zədələnməsi.
Hamiləlik və laktasiya dövrü.
Südəmər uşaqlarda istifadəsi.

Arterial hipertenziyası və ürək çatışmazlığı olanlarda ehtiyatla istifadə olunmalıdır.

**İstifadə qaydası və dozası**
Məlhəmdən az miqdarda əl ilə qaşınma və ya ağrı nahiyəsinə səhər və axşam, həmçinin hər defekasiya aktından sonra çəkilir. Düz bağırsaq daxilinə yeritmək üçün applikatordan istifadə edilir. Applikator düz bağırsağa yeridildikdən sonra tub sıxılır və tədricən applikator çıxarılır. Məlhəm tək halda və ya rektal kapsullar ilə kombinəedilmiş şəkildə istifadə oluna bilər. Proktosedil qısa müddət ərzində (7 gün ) istifadə olunur.

**Əlavə təsirləri**
Düz bağırsaq nahiyəsində diskomfort, preparata qarşı həssaslıq ola bilər.Yanğı hissi, selikli qişada quruluq, ikincili infeksiya yarana bilər. Proktosedil yüksək dozada və ya uzun müddət istifadə olunduqda hidrokortozonla əlaqədar ümumi əlavə təsirlər arta bilər.

**Buraxılış forması**
Yerli istifadə üçün 10 q məlhəm, alüminium tublarda. 1 tub içlik vərəqə və plastik ucluqla birgə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25ºC-dən yuxarı olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Sanofi India Limited, Hindistan.